İqtisadiyyat Nazirliyinin
Sahibkarlığın İnkişafı Fondu

# İLLİK HESABAT

# 2023



# Mündəricat

1. **Haqqımızda** ........ 2
2. **Strateji Plan** ........ 3
3. **Dəstək mexanizmləri** ........ 4
4. **Maarifləndirmə və təşviqat tədbirləri** ........ 12
5. **Kütləvi informasiya vasitələri və sosial media üzrə fəaliyyət** ........ 13
6. **Beynəlxalq əməkdaşlıq üzrə görülmüş işlər** ........ 14
7. **Ətraf mühit, sosial sahə və korporativ idarəetmə (ESG)** ........ 15

# 1. Haqqımızda

Sahibkarlığın İnkişafı Fondu (bundan sonra – SİF) sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsi və təşviq edilməsi istiqamətində fəaliyyət göstərən publik hüquqi şəxsdir. SİF ölkədə sahibkarlığın inkişafına dəstək verməklə qeyri-neft sektorunda innovativ texnologiyalara əsaslanan yeni istehsal, emal və infrastruktur müəssisələrinin yaradılmasına, ixracyönümlü və idxalı əvəzedən məhsul istehsalının artırılmasına, real sektora investisiya qoyuluşlarının sürətləndirilməsi ilə iqtisadiyyatda özəl sektorun payının daha da genişləndirilməsinə xidmət edir. SİF-in məqsədi Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının prioritet istiqamətləri üzrə sahibkarların investisiya layihələrini maliyyələşdirmək, sahibkarlığın inkişafını və yeni iş yerlərinin yaradılmasını təmin edən sahəvi və regional proqramların işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etməkdir.

### *İnkişaf tarixi*

- **1992-2002** — 1992-ci ildə "AR Sahibkarlığa Kömək Milli Fondunun Əsasnaməsi" təsdiq edilmişdir
- **2002-2018** — SİF-in güzəştli şərtlərlə maliyyələşdirmə mexanizmi yenidən qurulmuş və aktiv fəaliyyətə başlamışdır
- **2018** — "AR Sahibkarlığın İnkişafı Fondu" publik hüquqi şəxsi təsis edilmişdir
- **2021** — "Azərbaycan Biznesinin İnkişafı Fondu"nun yaradılması ilə bağlı Fərman imzalanmışdır

### *Baxış*

| **Missiya** | **Vizyon** |
|---|---|
| Maliyyə dəstəyi mexanizmləri həyata keçirməklə Azərbaycanda sahibkarlığın dayanıqlı inkişafında aktiv rol oynamaq | Sahibkarlıq subyektlərinin güzəştli şərtlərlə maliyyələşdirilməsi üzrə əsas operatora çevrilmək |

*Dəyərlərimiz*




## 2. Strateji Plan

SİF-in Strateji Planı 2021-2023-cü illəri əhatə etmişdir və özündə SİF-in fəaliyyətinin təkmilləşdirilməsi, qlobal trendlərə uzlaşdırılması və müasir çağırışlara hazır olması ilə bağlı tədbirlər planını cəmləşdirir.

Strateji Plan aşağıdakı strateji hədəfləri və hədəf indikatorlarını əhatə edir:

**SİF-in dayanıqlı inkişafının təmin edilməsi**

- İnstitusional bazanın gücləndirilməsi
- Korporativ Risk İdarəetməsinin yaradılması
- Dayanıqlı maliyyə vəziyyətinin təmin edilməsi
- Xidmət səviyyəsinin artırılması

**Sahibkarların güzəştli maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi**

- Mövcud maliyyələşmə mexanizmlərinin təkmilləşdirilməsi
- Yeni maliyyələşmə mexanizmlərinin tətbiqi
- Kiçik və orta sahibkarlığın inkişafına xüsusi dəstək verilməsi
- Əlavə maliyyələşmə mənbələrinin cəlb edilməsi

**İnnovativ texnologiyalara əsaslanan yeni müəssisələrin yaradılması və inkişafına dəstək**

- Mövcud prioritet sahələrdən əlavə alternativ enerji tətbiqinə əsaslanan, rəqəmsallaşma və ekoloji dayanıqlılığı təmin edən biznes sahələrinə dəstək
- Sektorlarda innovativ liderlərin müəyyən edilməsi və potensial layihələrin maliyyələşdirilməsi

# 3. Dəstək mexanizmləri

## 3.1. Maliyyələşmə mexanizmləri

SİF tərəfindən sahibkarlara aşağıdakı maliyyələşmə mexanizmləri üzrə dəstək göstərilir:

| GÜZƏŞTLİ KREDİT | AVADANLIQ KREDİTİ | ZƏMANƏT VƏ FAİZ SUBSİDİYASI MEXANİZMİ |
|---|---|---|
| 5% | 9% | 15%-dək |
| Məbləğ: 5 000 – 10 mln. manat | Məbləğ: 5 000 – 3 mln. manat | Məbləğ: ≤ 5 mln. manat |
| Müddət: ≤ 10 il | Müddət: ≤ 5 il | Müddət: ≤ 7 il |
| Güzəşt müddəti: ≤ Kredit müddətinin 1/2 | Güzəşt müddəti: ≤ 1 il | Güzəşt müddəti: ≤ 3 il |

***Qeyd:*** *Zəmanət və faiz subsidiyası mexanizmi işğaldan azad olunmuş ərazilərdə həyata keçiriləcək layihələrin dəstəklənməsi üçün nəzərdə tutulmuşdur.*

## 3.2. Sahibkarlığın inkişafına verilmiş güzəştli kreditlər

**Güzəştli kreditlərin prioritet istiqamətləri**



2023-cü il ərzində SİF-in vəsaiti hesabına güzəştli kredit almaq məqsədilə sahibkarlar tərəfindən **24** MKT vasitəsilə SİF-ə daxil olan ümumilikdə **3 518** müraciətə baxılmışdır. Müraciətlərin **3 420-si** müsbət qiymətləndirilmiş, **98** müraciətə isə müxtəlif səbəblərdən imtina verilmişdir. Müraciətlərin ümumi kredit tələbatı **226,8 mln.** manat, o cümlədən müsbət qiymətləndirilmiş müraciətlər üzrə **203,2 mln.** manat, imtina edilmiş müraciətlər üzrə isə **23,7 mln.** manat olmuşdur.

Hesabat dövründə SİF tərəfindən güzəştli kreditlər üzrə verilməsi proqnozlaşdırılan **150 mln.** manat vəsaitin yerləşdirilməsi uğurla icra olunaraq ümumi dəyəri **459,9 mln.** manat olan **3 276** investisiya layihəsinin maliyyələşdirilməsinə **193,8 mln.** manat güzəştli kredit verilmişdir. Verilmiş kreditlər hesabına **3 154** yeni iş yerinin açılması imkanı yaranmışdır.




| Dinamika və təhlil | 2023-cü il | 2022-ci il | 2021-ci il | 2020-ci il |
|---|---|---|---|---|
| **Maliyyələşdirilmiş layihələr** | | | | |
| Layihələrin sayı | 3 276 | 2 726 | 1 902 | 908 |
| Ümumi dəyəri (*mln. manatla)* | 459,9 | 399,4 | 287,7 | 245,4 |
| Kredit məbləği (*mln. manatla)* | 193,8 | 145,9 | 130,6 | 126,9 |
| *o cümlədən mikro, kiçik və orta sahibkarlara (mln. manat / xüsusi çəki)* | *176,6 (91,1%)* | *143,4 (98,3%)* | *115 (88,1%)* | *108,8 (85,7%)* |
| Kreditlərin layihələrin ümumi dəyərinə nisbəti *(%)* | 42,1 | 36,5 | 45,4 | 51,7 |
| Orta kredit məbləği (*mln. manatla)* | 0,059 | 0,054 | 0,069 | 0,140 |
| Orta kredit müddəti *(il)* | 3,8 | 4,2 | 4,5 | 6,5 |
| **Daxil olmuş müraciətlər** | | | | |
| Orta icra müddəti *(gün)* | 6 | 8 | 9 | 10 |
| İmtina faizi *(%)* | 2,8% | 9,8% | 14,8% | 17,4% |

2023-cü il ərzində **952** investisiya layihəsi üzrə **270,9 mln.** manat güzəştli kredit və **54** investisiya layihəsi üzrə **8,3 mln.** manat zəmanətli kredit vəsaitinin təyinatı üzrə istifadəsinə nəzarət etmək məqsədilə monitorinq aparılmışdır. Təyinatdan kənarlaşdırılmış güzəştli kreditlər üzrə qalıq borcunun SİF-ə köçürülməsi təmin edilmişdir. Eyni zamanda təyinatdan kənar istifadə olunmuş zəmanətli kreditlər üzrə verilmiş dövlət zəmanəti ləğv olunmuşdur.

**Verilmiş güzəştli kreditlərin növlər üzrə bölgüsü**
(pay, %)




**Kreditlərin sahibkarların təsnifatı üzrə bölgüsü**
*(illər üzrə müqayisə, kredit məbləğinin xüsusi çəkisi - %)*



## Verilmiş kreditlərin iqtisadiyyatın sahələri üzrə bölgüsü
*(mln. manat)*




Kənd təsərrüfatı məhsulları istehsalı sahəsinə verilmiş güzəştli kreditlər 2022-ci il ilə müqayisədə 2023-cü ildə **59,7%-dən 46,4%-ə** düşmüşdür. Sənaye məhsullarının istehsalı və emalı sahəsinə verilmiş kreditlər isə 2022-ci il ilə müqayisədə 2023-cü ildə **25,6%-dən 43,0%-ə** yüksəlmişdir.

## Güzəştli kreditlərin Bakı şəhəri və digər iqtisadi rayonlar üzrə bölgüsü



## 3.3. 2023-cü il ərzində maliyyələşən seçilmiş layihələr

### Yaşıl layihələr:



Sahibkarlıq subyekti: **“İntellekt” MMC**
Layihənin həyata keçirildiyi inzibati rayon: *Bakı şəhəri*
Layihənin ümumi dəyəri: ***180 min** manat*
Kreditin məbləği: ***50 min** manat*
Layihənin məqsədi: *E-nəqliyyat infrastrukturunun yaradılması*
İllik istehsal gücü: ***899 200 kVt** elektrik dolumu*
Yeni iş yerlərinin sayı: ***3***

Sahibkarlıq subyekti: **“AYS-J-ASTEXNİKA” MMC**
Layihənin həyata keçirildiyi inzibati rayon: *Abşeron rayonu*
Layihənin ümumi dəyəri: ***1,1 mln.** manat*
Kreditin məbləği: ***450 min** manat*
Layihənin məqsədi: *Tikinti materiallarının təkrar emalı*
İllik istehsal gücü: ***5 971 kub** qum, **13 513 kub** çınqıl, **3 143 kub** metal*
Yeni iş yerlərinin sayı: ***7***



### İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən layihələr:



Sahibkarlıq subyekti: **“MISTER DECOR” MMC**
Layihənin həyata keçirildiyi inzibati rayon: *Ağdam rayonu*
Layihənin ümumi dəyəri: ***7,5 mln.** manat*
Kreditin məbləği: ***2,0 mln.** manat*
Layihənin məqsədi: *Divar kağızları istehsalı sahəsinin yaradılması*
İllik istehsal gücü: ***825 552 rulon** divar kağızı*
Yeni iş yerlərinin sayı: ***75***



Sahibkarlıq subyekti: **“Metkons” MMC**
Layihənin həyata keçirildiyi inzibati rayon: *Ağdam rayonu*
Layihənin ümumi dəyəri: ***3,0 mln.*** *manat*
Kreditin məbləği: ***970 min*** *manat*
Layihənin məqsədi: *Havalandırma, yanğınsöndürmə avadanlıqları və metal məmulatları istehsalı sahəsinin təşkili*
İllik istehsal gücü: ***1 320 ədəd*** *konteyner,* ***26 256 ədəd*** *yanğınsöndürmə sistemi avadanlıqları,* ***2 112 ədəd*** *havalandırma sistemi avadanlıqları,* ***1 536 ədəd*** *mənzil qapısı və* ***37 620 kv.m 3D*** *metal tor*
Yeni iş yerlərinin sayı: ***45***

Sahibkarlıq subyekti: **“Prof-Dam” MMC**
Layihənin həyata keçirildiyi inzibati rayon: *Ağdam rayonu*
Layihənin ümumi dəyəri: ***6,6 mln.*** *manat*
Kreditin məbləği: ***2,5 mln.*** *manat*
Layihənin məqsədi: *Dam örtükləri, dam aksesuarları və sendviç panel istehsalının təşkili*
İllik istehsal gücü: ***1 145,4 min metr*** *profnastil,* ***137,4 min metr*** *metal plitə (çerepitsa),* ***229,1 min m²*** *sendviç panel,* ***458,2 min metr*** *kürəklik*
Yeni iş yerlərinin sayı: ***20***





Sahibkarlıq subyekti: **“BAFCO İNVEST” MMC**
Layihənin həyata keçirildiyi inzibati rayon: *Ağdam rayonu*
Layihənin ümumi dəyəri: ***10,0 mln.*** *manat*
Kreditin məbləği: ***6,0 mln.*** *manat*
Layihənin məqsədi: *Ayaqqabı və poliuretan tipli müxtəlif təyinatlı çəkmələrin istehsalı sahəsinin təşkil olunması*
İllik istehsal gücü: ***291 min*** *cüt təhlükəsizlik və müxtəlif növ ayaqqabılar,* ***121,3 min*** *cüt poliuretan çəkmələr*
Yeni iş yerlərinin sayı: ***120***

**Digər layihələr:**



Sahibkarlıq subyekti: **“Nobel Food” MMC**
Layihənin həyata keçirildiyi inzibati rayon: *Abşeron rayonu*
Layihənin ümumi dəyəri: ***26,0 mln***. *manat*
Kreditin məbləği: ***5,0 mln.*** *manat*
Layihənin məqsədi: *Qida məhsullarının istehsalı*
İllik istehsal gücü: ***6 720 ton*** *qida məhsulları (çips, günəbaxan tumu, partlamış qarğıdalı, çərəz, suxarı) istehsalı*
Yeni iş yerlərinin sayı: ***210***

Sahibkarlıq subyekti: **“Foriella” MMC**
Layihənin həyata keçirildiyi inzibati rayon: *Bakı şəhəri*
Layihənin ümumi dəyəri: ***12,9 mln***. *manat*
Kreditin məbləği: ***4,3 mln.*** *manat*
Layihənin məqsədi: *Mebel istehsalı*
İllik istehsal gücü: ***115,7*** *min ədəd yumşaq mebel,* ***71,7*** *min ədəd dəst mebel və* ***23,9*** *min ədəd masa*
Yeni iş yerlərinin sayı: ***222***





Sahibkarlıq subyekti: **“LA RAN” MMC**
Layihənin həyata keçirildiyi inzibati rayon: *Lənkəran rayonu*
Layihənin ümumi dəyəri: ***1,8 mln***. *manat*
Kreditin məbləği: ***900 min*** *manat*
Layihənin məqsədi: *Şəkərli qənnadı məmulatların istehsalı*
İllik istehsal gücü: ***1381 ton*** *konfet, lokum və marmelad istehsalı*
Yeni iş yerlərinin sayı: ***5***

Sahibkarlıq subyekti: **“ARTPAK” MMC**
Layihənin həyata keçirildiyi inzibati rayon: *Bakı şəhəri*
Layihənin ümumi dəyəri: ***3,5 mln***. *manat*
Kreditin məbləği: ***1,0 mln***. *manat*
Layihənin məqsədi: *Qablaşdırma və etiket istehsalı*
İllik istehsal gücü: ***1 516 ton*** *qablaşdırma və etiket*
Yeni iş yerlərinin sayı: ***10***



### 3.5. Avadanlıq krediti mexanizmi

2023-cü ildə ümumi layihə dəyəri **2,1 mln.** manat, kredit məbləği **1,2 mln.** manat olan **4** investisiya layihəsinə avadanlıq krediti verilmişdir.

Avadanlıq kreditinin səmərəliliyinin artırılması məqsədilə müvafiq addımlar atılmışdır. Belə ki, 2023-cü ildə Bakı şəhəri və regionlar üzrə keçirilmiş görüşlər, o cümlədən sosial media hesabları üzərindən edilmiş paylaşımlar vasitəsilə sahibkarların avadanlıq krediti barədə məlumatlandırılması təmin edilmişdir.

### 3.6. Dövlət zəmanətli kredit mexanizmi

Zəmanət verilmiş müraciətlərdən **2 630-u** üzrə kredit müqaviləsi bağlanmış və SİF-ə birdəfəlik komissiyalar ödənilmişdir ki, bununla da verilmiş zəmanətlər rəsmi qüvvəyə minmişdir. Zəmanəti rəsmi qüvvəyə minmiş müraciətlər üzrə kredit məbləği **499,8 mln.** manat, zəmanət məbləği **291,8 mln.** manat təşkil edir. Bu mexanizm üzrə 2023-cü il ərzində sahibkarlara **10,6 mln.** manat, ümumilikdə isə **52,0 mln.** manat subsidiya ödənilmişdir. Bu sahibkarlara subsidiyanın ödənilməsi kredit müddəti ərzində davam etdiriləcəkdir.

### 3.7. Mövcud kredit portfeli üzrə faizlərin subsidiyalaşdırılması

Mexanizmdən yararlanmaq məqsədilə SİF-ə **6 357** müraciət daxil olmuş, bunlardan **5 071-nə (79,8%)** subsidiyanın verilməsi barədə müsbət qərar qəbul edilmişdir. Bu mexanizm çərçivəsində, ümumilikdə **893,4 mln.** manat kredit portfelinə **73,3 mln.** manat faiz subsidiyasının ödənilməsi təsdiq edilmişdir. Artıq bu məbləğin **71,5 mln.** manatı sahibkarlara ödənilmişdir.

## 4. Maarifləndirmə və təşviqat tədbirləri

SİF-in maliyyə mexanizmləri ilə bağlı maarifləndirmə işləri çərçivəsində aşağıdakı mövzularda tədbirlər təşkil edilmişdir:

**19**

**SİF**

SİF-in təşkilatçılığı ilə tədbirlər keçirilmişdir

**42**

**KOBİA-nın tədbirləri**

Müxtəlif dövlət qurumlarının və sahibkarların iştirakı ilə keçirilən tədbirlərdə SİF də təmsil olunmuşdur

**13**

**Aqrar İnnovasiya Mərkəzinin sərgiləri**

Sahibkarların iştirakı ilə keçirilən sərgilərdə iştirak təmin edilmişdir

**8**

**Sərgi və konfrans**

"Marsol" MMC və Naxçıvan KTN-nin təşkilatçılığı ilə keçirilən sərgi, həmçinin Prezidentin Xüsusi Nümayəndəliyinin və Dövlət Turizm Agentliyinin təşkil etdiyi konfranslarda iştirak edilmişdir

**9**

**Rayon İcra Hakimiyyəti**

İcra Hakimiyyətlərinin təşəbbüsü ilə sahibkarlarla görüşlər keçirilmişdir

**19**

**Digər görüşlər**

AQSİA, AKİA, AZPROMO, KOBSKA, Caspian Energy Club, "Marsol" MMC, "PAŞA Bank" ASC, "Bank Respublika" ASC, Qadın Resurs Mərkəzi və Naxçıvan KTN-nin təşkilatçılığı ilə keçirilən tədbirlərdə iştirak edilmişdir

## 5. Kütləvi informasiya vasitələri və sosial media üzrə fəaliyyət

SİF-in strateji hədəflərinə nail olmaq, fəaliyyətin effektivliyini artırmaq və qurumun maraqlarına əsasən ictimaiyyətlə əlaqələrin qurulması üçün kommunikasiya strategiyasına uyğun olaraq müvafiq tədbirlər görülmüşdür.

İctimaiyyətlə əlaqələr istiqamətində fəaliyyətin effektivliyinin artırılması məqsədilə ənənəvi medianın müxtəlif kommunikasiya kanallarından istifadə olunmuşdur. Nəticədə, 2023-cü il ərzində 41 press-reliz dərc olunmuş, televiziya və radio kanallarında SİF-in nümayəndələrinin 22 müsahibəsi yayımlanmış və 1 mətbuat konfransı (brifinq) keçirilmişdir. Əlavə olaraq, SİF-in təşəbbüsü ilə “Avto” FM-də “Danışır Sahibkar” layihəsinə başlanılmışdır. Həmçinin “Retro” FM və “Hit” FM dalğalarında “Sahibkara faydalı” rubrikası vasitəsilə maarifləndirmə həyata keçirilmişdir. “Danışır Sahibkar” layihəsinin daha geniş auditoriyaya çatdırılması məqsədilə verilişlər SİF-ə məxsus rəsmi sosial media hesablarında mütəmadi yerləşdirilmişdir.

Sosial şəbəkələr üzərindən ictimaiyyətlə əlaqələr işinin təsir gücünü artırmaq, SİF-in nüfuzunu qorumaq yönündə işlər aparılmışdır. Müvafiq olaraq, paylaşımların davamlı monitorinqi aparılmış, maraqlı tərəflərin təklif, rəy və şikayətlərinə vaxtında reaksiya verilmişdir.

2023-cü ildə rəqəmsal platformalarda reklam fəaliyyəti təkmilləşdirilmişdir. Nəticədə SİF-ə məxsus 5 sosial şəbəkə hesabına ümumilikdə 6 857 nəfər izləyici cəlb edilmişdir. Bununla da sosial şəbəkələr üzrə izləyici sayı 21 683 nəfərdən 28 540 nəfərə yüksəlmişdir. Sosial media kanalları üzərindən 1 537 paylaşım edilmişdir.



## 6. Beynəlxalq əməkdaşlıq üzrə görülmüş işlər

SİF tərəfindən 2023-cü il ərzində nüfuzlu beynəlxalq təşkilatların, həmçinin xarici dövlətlərin analoji qurumlarının təcrübələrinin öyrənilməsi ilə bağlı əlaqələrin qurulması istiqamətində işlər davam etdirilmişdir.

SİF-lə Gürcüstanın "Enterprise Georgia" Agentliyi arasında 15.05.2023-cü il tarixində Tbilisi şəhərində keçirilmiş görüşdə əməkdaşlığın gələcək perspektivlərini müəyyən edən Anlaşma Memorandumu imzalanmışdır. Memoranduma əsasən ilkin olaraq tərəflər qarşılıqlı təcrübə mübadiləsi həyata keçirəcəklər.

SİF tərəfindən beynəlxalq əməkdaşlığın qurulması istiqamətində Polşa İnkişaf Fondu ilə 03.04.2023-cü il tarixində hər iki tərəfdən rəhbərlərin iştirakı ilə keçirilmiş onlayn görüşün nəticəsi olaraq qurumlar arasında memorandumun imzalanmasına qərar verilmişdir. Bununla əlaqədar olaraq, memorandumun ilkin layihəsi hazırlanmış, Polşa İnkişaf Fondunda və İN-də baxılaraq müvafiq rəylər təqdim edilmişdir. Hazırda sənədin yekun versiyası Polşa İnkişaf Fondunda baxılmadadır.

Özbəkistanın Sahibkarlıq Fəaliyyətinin Dəstəklənməsi Dövlət Fondu ilə SİF arasında 03.08.2023-cü il tarixində onlayn formatda görüş keçirilmişdir. Görüş zamanı qurumların fəaliyyəti, həmçinin Azərbaycan-Özbəkistan əlaqələrinə dair qarşılıqlı fikir mübadiləsi həyata keçirilmişdir. Aparılmış müzakirələrin nəticəsi olaraq tərəflər arasında ilkin qaydada əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanmasına qərar verilmişdir. Anlaşma Memorandumunun tərəflər arasında razılaşdırılmış ilkin variantına İN-də baxılmış və Özbəkistan Fondu ilə razılaşdırılmışdır. Özbəkistanın aidiyyəti qurumunda baş verəcək struktur dəyişiklikləri nəzərə alınaraq Memorandumun 2024-cü il ərzində imzalanması nəzərdə tutulmuşdur.

Beynəlxalq əlaqələrin dərinləşdirilərək beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə Sloveniyanın Sahibkarlıq Fondu ilə 15.09.2023-cü il tarixində onlayn formatda görüş keçirilmiş və qarşılıqlı müzakirələr aparılmışdır. Müzakirələr nəticəsində 2024-cü ildə tərəflər arasında əməkdaşlığın formatına dair müzakirələrin daha da genişləndiriləcəyi nəzərə alınmışdır.

İspaniyanın "İnstituto Credito Oficial" qurumu ilə 30.10.2023-cü il tarixində keçirilmiş onlayn görüşdə qurumla ilkin əməkdaşlığa dair razılıq əldə olunmuş və SİF tərəfindən Anlaşma Memorandumu layihəsinin mətni ilkin rəy üçün İspaniya tərəfinə təqdim edilmişdir. İspaniya tərəfi 2024-cü il ərzində tərəflər arasında görüş keçirilərək müzakirələrin aparılması və əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsini təklif etmişdir.

SİF ilə Tacikistan, İordaniya və Cənubi Koreyanın analoji qurumları ilə onlayn formatda görüşlər keçirilərək müvafiq əməkdaşlıq imkanları müzakirə edilmişdir. Tacikistanın İnkişaf Bankı ilə Anlaşma Memorandumunun imzalanmasına dair müzakirələr aparılmış və Memorandumun layihəsi rəy üçün qarşı tərəfə təqdim edilmişdir.

# 7. Ətraf mühit, sosial sahə və korporativ idarəetmə (ESG)

İqlim məsələləri qlobal miqyasda mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan müasir iqtisadiyyatın tərkib hissəsi kimi həm dövlət, həm də özəl sektor vacib rol oynamalıdır. Bu, davamlılığı və bütün maraqlı tərəflər üçün uzunmüddətli dəyəri təmin etməyin yeganə yoludur. Azərbaycan Respublikası Paris Qlobal Sazişini dəstəkləyir. Anlaşma çərçivəsində, 2030-cu ilə qədər Azərbaycan Respublikası qlobal iqlim dəyişikliyi səylərinə töhfə kimi istixana qazları emissiyalarının səviyyəsini **35%** azaltmağı hədəfləyir.

Eyni zamanda, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində "Təmiz ətraf mühit" və "Yaşıl artım ölkəsi" prioriteti öz yerini almışdır. SİF adıçəkilən milli prioritetin icrası və Qlobal Sazişdə müəyyən edilmiş hədəfə çatmaq və maraqlı tərəflərin tələblərinin ödənilməsi baxımından öz fəaliyyətində ESG aspektlərini əks etdirir.

Bununla yanaşı, SİF-in fəaliyyətində ətraf mühit, sosial sahə və idarəetmə aspektləri üzrə mənfi təsirləri yumşaltmaq məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir. Bu istiqamət üzrə layihələrin planlı və effektiv formada idarə olunması məqsədilə SİF-də "Yaşıl Komanda" işçi qrupu yaradılmış, həmçinin qısa və uzunmüddətli hədəflərə çatmaq üçün tədbirlər planı hazırlanmışdır.

## 7.1. Ətraf mühit

Özlüyündə ətraf mühitə vurulan zərərləri minimuma endirən və ya azaldan yaşıl layihələr SİF-in güzəştli kreditlərinin verilməsi istiqamətində müəyyənləşdirilmiş prioritet sahələr sırasına daxil edilmişdir. Sözügedən sahəyə diqqətin artırılmasında əsas məqsəd bərpa olunan enerji mənbələrindən istifadənin artırılmasına, tullantıların effektiv idarə edilməsinə, enerji səmərəliliyinin yüksəldilməsinə, həmçinin təkrar emala fokuslanmış layihələrin dəstəklənməsi və dayanıqlı iqtisadiyyata töhfə verməkdir. 2022-2023-cü illər ərzində bu istiqamətdə e-infrastrukturun inkişafı, təkrar emal və bərpa olunan enerji mənbələrindən istifadə edərək resurslardan səmərəli istifadəni təmin edən aşağıdakı layihələr SİF tərəfindən maliyyələşdirilmişdir.

| Layihənin məqsədi | SİF-in güzəştli vəsaiti |
|---|---|
| Enerji tələbatının günəş panelləri vasitəsi ilə təmin edilməsi ilə quşçuluğun inkişaf etdirilməsi | 2 mln. manat |
| E-infrastrukturun inkişafı istiqamətində elektrik doldurma stansiyalarının quraşdırılması | 150 min manat<br>*(ilkin olaraq 50 min manat verilib)* |
| Dairəvi iqtisadiyyatı dəstəkləyən təkrar emal yolu ilə tikinti materiallarının istehsalı | 450 min manat |

Qeyd olunanlarla yanaşı, ölkədə bərpa olunan enerji mənbələrindən səmərəli istifadənin dəstəklənməsi istiqamətində SİF ilə BOEMDA arasında anlaşma memorandumu imzalanmışdır. Memorandum çərçivəsində yaşıl iqtisadiyyat üçün investisiya cəlbediciliyinin artırılması və

davamlı inkişaf təşəbbüslərinə nail olmaq üçün birgə səylərin göstərilməsi istiqamətində əməkdaşlıq nəzərdə tutulmuşdur.

Maliyyələşdirmə zamanı dolayı təsirlərin ölçülməsi və izlənilməsi üçün 2023-cü ildə SİF tərəfindən ətraf mühit, sosial sahə və korporativ idarəetmə siyasəti hazırlanmış və MŞ tərəfindən təsdiqlənmişdir. Siyasət çərçivəsində MKT-lər vasitəsilə maliyyələşdirilən sahibkarlıq subyektlərinin fəaliyyətinə dair ətraf mühit, sosial və korporativ idarəetmə risklərinin tənzimlənməsi istiqamətini müəyyən etmək, həmçinin mənfi nəticələrin qarşısını almaq, minimuma endirmək və ya təsirlərini yumşaltmaq üçün mexanizm və beynəlxalq standartlara uyğun qiymətləndirmə modeli hazırlanmışdır. Tətbiqi nəzərdə tutulmuş yanaşma banklara təqdim edilmiş və sözügedən istiqamət üzrə maarifləndirmə aparılmışdır.

Eyni zamanda, SİF-in birbaşa təsirlərini qiymətləndirmək və mənfi təsirləri minimuma endirmək məqsədilə ətraf mühit, sosial sahə və korporativ idarəetmə aspektlərini əhatə edən Tədbirlər Planı təsdiq edilmişdir. Bu tədbirlər çərçivəsində, birbaşa təsirlərin ölçülməsi və izlənilməsi məqsədilə SİF tərəfindən ətraf mühit üzrə qiymətləndirmə modeli hazırlanmışdır. Statistik məlumatların mütəmadi olaraq toplanılması və emal edilməsi SİF-in birbaşa təsirlərini izləməyə (yanacaq və elektrik enerjisindən yaranan $CO_2$ tullantıları, su, kağız) və resursların səmərəli istifadəsi istiqamətində təkmilləşdirmə işlərinin görülməsinə imkan yaratmışdır.

## 7.2. Sosial sahə

### Kadr strukturu

SİF-in fəaliyyətinin nəticələri bilavasitə əməkdaşların peşəkarlıq səviyyəsindən və təhlükəsizliyindən asılıdır. SİF tərəfindən əməyin mühafizəsi və təhlükəsizliyi, stabil əməkhaqqı ödənişi, işçilərin könüllü tibbi sığortası, onların müxtəlif tədris və ixtisasartırma proqramlarına cəlb edilməsi vasitəsilə insan kapitalının inkişafı məsələləri üzrə mütəmadi olaraq işlər görülmüşdür. SİF tərəfindən işçi heyətinin seçilib yerləşdirilməsi, kadrların təlim ehtiyaclarının müəyyən edilməsi, hesabatların hazırlanması, vətəndaşların qəbulu və onların müraciətlərinə baxılması, əməkdaşların əməyinin stimullaşdırılması və digər tədbirlər həyata keçirilmişdir.

**SİF-in kadr strukturu**

| | **Cəm** | **Cinsi** | | **Yaş qrupu** | | |
|---|---|---|---|---|---|---|
| | | **Kişi** | **Qadın** | **<30** | **30-50** | **>50** |
| **Ümumi** | **83** | **55** | **28** | **19** | **54** | **10** |
| *Rəhbərlik* | *4* | *4* | *-* | *-* | *2* | *2* |
| *Struktur bölmə rəhbərləri* | *10* | *7* | *3* | *1* | *7* | *2* |
| *Mütəxəssislər* | *56* | *39* | *17* | *17* | *35* | *4* |
| *Texniki heyət* | *13* | *5* | *8* | *1* | *10* | *2* |

2023-cü ilin sonuna SİF-in ştat cədvəli üzrə faktiki işçi sayı **83** nəfərdən ibarət olmuşdur. Ştat cədvəlində kişilərin xüsusi çəkisi **66%**, qadınların xüsusi çəkisi isə **34%** təşkil etmişdir. Əməkdaşların ümumi sayında **19** nəfər 18-30 yaş, **54** nəfər isə 30-50 yaş aralığında, **10** nəfər isə 50 yaşdan yuxarı olmuşdur. SİF-in əməkdaşlarının **88%-i** gənc və orta yaş qrupundadır.

Qeyd olunanlarla yanaşı, işçilər üçün həvəsləndirmə və stimullaşdırıcı tədbirlər tətbiq edilmişdir. Eyni zamanda, əməkdaşların könüllü tibbi sığortası təmin edilmişdir. Əlavə olaraq, SİF tərəfindən əməkdaşların və rəhbər heyətin yumşaq bilik və bacarıqlarının artırılması istiqamətində müxtəlif mövzularda ümumilikdə 101 saatı əhatə edən təlimlər təşkil edilmişdir.

Həmçinin, 2023-cü ildə UNDP-nin nümayəndəsi ilə ESG-nin tətbiqi və Davamlılıq Hesabatının hazırlanması üzrə müzakirələr aparılmış, maarifləndirmə məqsədilə SİF-in əməkdaşları üçün seminar təşkil olunmuşdur.

### Güzəştli kreditlərin sosial təsirləri

Hesabat dövrü ərzində SİF tərəfindən **193,8 mln.** manat güzəştli kredit verilmiş və nəticədə **3 154** yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur. Eyni zamanda, vurğulamaq lazımdır ki, 2023-cü il ərzində **290** qadın sahibkara **16,4 mln.** manat və **108** gənc sahibkara isə **7,1 mln.** manat məbləğində güzəştli kredit vəsaiti ayrılmışdır.

**Həssas qruplara verilmiş güzəştli kreditlərin müqayisəsi**

| Adı | 2023-cü il | | 2022-ci il | |
|---|---|---|---|---|
| | Sayı | Məbləğ *(mln. manatla)* | Sayı | Məbləğ *(mln. manatla)* |
| Qadın sahibkarlar | 290 | 16,4 | 220 | 13,9 |
| Gənc sahibkarlar | 108 | 7,1 | 95 | 14,0 |

### SİF-ə daxil olmuş müraciətlər

2023-cü il ərzində birbaşa SİF-ə daxil olmuş **112** icra xarakterli müraciətlərin **65**-i (58%) güzəştli kredit alınması, **9**-u (8%) MKT-lərin fəaliyyəti, **1**-i (1%) SİF-in fəaliyyəti, **6**-sı (5%) güzəştli kreditin təyinatı ilə bağlı problemlər, **4**-ü (4%) ayrılmış kredit vəsaitinin müddətinin uzadılması, **16**-sı (14%) müvafiq işlə təmin olunma ilə bağlı və **11**-i (10%) isə digər məsələlər üzrə olmuşdur.

Qeyd edilənlərdən əlavə, **1 339** vətəndaş ilə telefon bağlantısı təmin edilmiş, həmçinin SİF-in rəhbər və vəzifəli şəxsləri tərəfindən **396** vətəndaş qəbulu həyata keçirilmişdir.

### 7.3. Korporativ İdarəetmə

"S&P Global Ratings" reytinq agentliyi SİF-in uzun və qısamüddətli kredit reytinqini "BB-/B" səviyyəsində təsdiqləmişdir. Yaxın gələcəkdə SİF-in reytinqinin **"pozitiv"** olaraq qalacağını proqnozlaşdıran reytinq agentliyi ESG risklərini də nəzərə almışdır. SİF-in ölkə iqtisadiyyatının inkişafında əvəzolunmaz rolu, dövlət və özəl sektor arasında əlaqələndirici mövqeyi reytinq

agentliyi tərəfindən müsbət qiymətləndirilmişdir. Reytinqin alınmasında əsas məqsəd qloballaşan bazarın tələblərinə uyğunlaşmaq, cari və potensial tərəfdaşlar arasında etibarlılığı artırmaq və gələcəkdə xarici maliyyə vəsaitlərinin cəlb edilməsi üçün uyğun zəmin yaratmaqdır.

Bunlardan əlavə, 2023-cü ildə sahibkarlıq subyektlərinin SİF-ə etimadının artırılması, SİF-in fəaliyyətində qərəzsizlik və obyektivliyin təmin edilməsi məqsədilə maraqlar münaqişəsinin qarşısının alınması üzrə qayda hazırlanmışdır.

Qeyd olunanlarla yanaşı, SİF-in UNGC beynəlxalq təşkilatına üzvlüyü ilə bağlı işlər görülmüş və 2024-cü ilin yanvar ayında üzvlük statusu təsdiqlənmişdir.